05 dekabr 2014-cü il tarixində Yaponiya hökümətinin “Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı” çərçivəsində Masallı rayonunda Heydər Əliyev Mərkəzinin binasında Masallı rayon İcra Hakimiyyətinin Başçısı Rafil Hüseynovun iştirakı ilə İmzalanma Mərasimi keçirilmişdi.

**“Masallı rayonunda tullantıların idarə olunması sisteminin təkmilləşdirilməsi” layihəsi**

Layihənin əsas məramı Masallı rayonunda tullantıların və təkrar istifadənin praktik olaraq davamlı şəkildə idarə olunmasının həllini təmin etmək məqsədi ilə rayondan kənarda yanma kameralarını inşa etməkdir. Layihədən faydalananların sayı təxminən 46, 000 nəfəri əhatə edir. Bu layihə üçün Yaponiya hökumətinin ayırdığı qrant yardımının ümumi məbləği **101,551 ABŞ dolları** təşkil edir**.**

Səfir T.Takahaşi Azərbaycan dilində nitq söylədi



İmzalanma



Sağ tərəfdən: Səfir T.Takahaşi, Masallı rayon İcra Hakimiyyətinin Başçısı R.Hüseynov, “Azərbaycan İcma İnkişafı, Tədqiqat, Təlim və Resurs Mərkəzi”nin İcracı Direktoru Y.Dadasov



Bu ilin yay aylarında Qax rayonunda inşa olunan “Tullantıların İdarə olunması Mərkəzi”. Eyni mərkəz Masallı rayonunda inşa olunacaq.

